Türküstan.- 2025.- 5-11 avqust, №27.- S.13.

# Ədəbi



**Fəxrəddin Sərrast**

## Görəndə

Könlüm yenə cuşa gəldi, sevindim,
El-obamı xoşbəxt, abad görəndə.
İgidlərin hünəriylə öyündüm,
Qarabağda yeni həyat görəndə.

Yurdum doğma yuvasına qayıtdı,
Nənələrin duasına qayıtdı,
Ruhum bahar havasına qayıtdı,
Əsir olan gülü azad görəndə.

Ay Fəxrəddin, uca dağdı Şəhidim!
Cənnətdəki bağça- bağdı Şəhidim!
Sanıram ki, bu gün sağdı Şəhidim!
Ürəklərdən silinməz ad görəndə.

## Qazi tələbəm

Zirvədən enməzdir şanın, şöhrətin,
Yüz dastan yazılsa, sığmaz qeyrətin.
Zülmətə nur saldı gücün, qüdrətin,
Düşmənin boynuna vurulan zərbəm,
Zəfər müjdəçisi, qazi tələbəm!

Gör neçə Şəhidin şahidisən sən,
Haqq yolu kəsəmməz nə duman, nə çən.
Kimlərə görəsə qalib əsgərsən,
Mənim qibləgahım, and yerim, Kəbəm,
Zəfər müjdəçisi, qazi tələbəm!

Sərrastın ürəyi fərəhlə dolu,
Poladdı yumruğu, dəmirdi qolu.
Saldın qayalardan Şuşaya yolu,
Azad Qarabağdır ən ali rütbəm,
Zəfər müjdəçisi, qazi tələbəm!

## Tarixdə

Demə illər ötür, zaman dəyişir,
Yaxşı da, yaman da, qalır tarixdə.
Kimisi qonaqtək gəlib də keçir,
Kimi məskənini salır tarixdə.

İnsan var tarixin qəsdinə durur,
İnsan var dağıdır, insan var qurur.
İnsan var bir sözlə könüllər qırır,
İnsan var könüllər alır tarixdə.

Sərrast, bu dünyanın əlində ələk,
Keçirdi ələkdən çox arzu-dilək.
Çox gördüm ətirli, təzə-tər çiçək,
Saralır tarixdə, solur tarixdə.

10.04.2025

## Bax

Zəhmətkeşin qabarlaşan,
Əllərinə hörmətlə bax!
Bir bağbanın ətir saçan,
Güllərinə hörmətlə bax!

Üzü dönməz oğulların,
Nuru sönməz oğulların.
İzi ölməz oğulların,
Yollarına hörmətlə bax!

Düşmənindən qisas alan,
Canlarına qorxu salan.
Şəhidlərdən miras qalan,
Ellərinə hörmətlə bax!

Sərrast, göz at bağlarına,
Qayıt gənclik çağlarına.
Başı qarlı dağlarına,
Çöllərinə hörmətlə bax!

## Titrəməsin

Ay gözəl, bir söylə, hardan gəlirsən?
Yavaş gəl, ürəyim qoy titrəməsin.
Qəlbimə elə at müjgan oxunu,
Əlində tutduğun yay titrəməsin.

Necə yaraşırsan, necə ömrümə,
Ömrün bir ömürlük köçə ömrümə.
Elə şölə sal ki, gecə ömrümə,
Ulduz lərzə gəlib, Ay titrəməsin.

Sərrasta işvəni, nazı gətir ki,
Söhbəti gətir ki, sazı gətir ki,
Elə bir baharı, yazı gətir ki,
Sellər tüğyan edib, çay titrəməsin.
06.05.2025

## İnsan dəyişməz

Arzular dəyişər, dilək dəyişər,
Zaman yetişəndə fələk dəyişər,
Əsib yorulanda külək dəyişər,
İnsan dəyişməz!

Nəfsinə əyməsə göz qürurunu,
Söhbət qürurunu, söz qürurunu.
Əgər alçaltmasa öz qürurunu,
İnsan dəyişməz!

Özünü yandıran od olub gedər,.
Nifrətlə çəkilən ad olub gedər,
Ən yaxın doğmaya yad olub gedər,
İnsan dəyişməz!

Bu qədər üstünlük hər kimdə olsa,
Min dərdin çarəsi həkim də olsa,
Dünyaya əbədi hakim də olsa,
İnsan dəyişməz!

Biz də köçəcəyik nəsillər kimi,
Ötüb gedəcəyik hər illər kimi.
Zamana bənzəyib fəsillər kimi,
İnsan dəyişməz!...